

# Cahana sığmayan dahi

Böyük şair, mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə əlaqədar Ağdaş Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarındakı mədəniyyət müəssisələrində silsilə tədbirlər keçirilib.

Ağdaş rayon Mərkəzi Kitabxanasının oxu zalında "Poeziyamızın fatehi" adlı gecə keçirilib. MKS-nin direktoru Seyfəddin Feyzullayev Prezident İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunmasının bu görkəmli şəxsiyyətin irsinin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib. Vurğulanıb ki, Nəsimi Azərbaycan ədəbi dilinin, poeziya ənənələrinin zənginləşdirilməsində əvəzsiz xidmətlər göstərib.

MKS-nin baş biblioqrafı Könül Musayeva görkəmli şairin həyat və yaradıcılığı haqqında geniş məlumat verib, onun Azərbaycanda fəlsəfi poeziyanın əsasını qoyanlardan biri olduğunu diqqətə çatdırıb. Bildirib ki, ötən əsrin 70-ci illərində ölkəmizə rəhbərlik edən ulu öndər Heydər Əliyev Nəsiminin anadan olmasının 600 illik yubileyinin yüksək səviyyədə keçirilməsinə nail olub. Onun təşəbbüsü ilə yubiley tədbirləri keçmiş SSRİ miqyasında, bir sıra xarici ölkələrdə, UNESCO-da qeyd olunub. Şairin adı əbədiləşdirilib, Bakıda heykəli qoyulub, haqqında bədii film çəkilib.

Kitabxananın əməkdaşı Vüsalə Məmmədova və məktəblilər şairin məşhur qəzəllərini söyləyiblər. Sonra "Nəsimi" filmi nümayiş olunub. Tədbir iştirakçıları "Nəsimi ili"nə həsr olunmuş sərgiyə baxıblar.

Ağdaş rayon Heydər Əliyev Mərkəzində böyük söz ustadının yubileyinə həsr olunmuş "Nəsimi fəlsəfəsi" adlı ədəbi-bədii gecə keçirilib. Heydər Əliyev Mərkəzi və Ağdaş rayon MKS-nin 1 saylı Gənclər kitabxanasının təşkilatçılığı ilə reallaşan tədbirdə əvvəlcə rayon Mədəniyyət mərkəzinin rəssamlıq dərnəyi üzvlərinin əl işlərindən və Nəsiminin yaradıcılığını özündə əks etdirən nəşrlərdən ibarət sərgiyə baxış olub.







Heydər Əliyev Mərkəzinin direktoru Tənzilə Şıxıyevanın açılış sözündən sonra şairin həyat və yaradıcılığını əks etdirən materiallardan hazırlanmış videoçarx nümayiş olunub. Heydər Əliyev Mərkəzinin əməkdaşı Fatma Əsədova Nəsiminin həyat və yaradıcılığına dair məruzə ilə çıxış edib. Ağdaş Regional Mədəniyyət İdarəsinin məsləhətçisi İlqar Vəliyev idarənin əhatə etdiyi rayonların mədəniyyət müəssisələrində Nəsiminin yubileyi ilə əlaqədar keçirilən tədbirlərdən söz açıb.

Ağdaş Dövlət Humanitar Kollecinin ədəbiyyat müəllimi Yeganə Əliyeva şairin poeziyasının səciyyəvi cəhətlərindən söz açıb. Sonda kollecin tələbələri şairin şeirlərini söyləyib, Ağdaş şəhər Uşaq musiqi məktəbinin muğam üçlüyünün ifasında Nəsiminin qəzəllərindən ibarət muğamlar səsləndirilib.

Ağdaş rayon Mədəniyyət Mərkəzində "Nəsimi dünyası" adlı teatrlaşdırılmış ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Mərkəzi kitabxana və Mədəniyyət mərkəzinin birgə təşkilatçılığı ilə reallaşan tədbirdə "İmadəddin Nəsimi - 650" və "Əbədiyyət üfüqündə doğan günəş" adlı kitab və Mədəniyyət mərkəzinin dərnək üzvlərinin əl işlərindən ibarət rəsm sərgisi açılıb.



Cahangir Cahangirovun "Nəsimi" kantatasının sədaları altında başlayan tədbirdə Mədəniyyət mərkəzinin Xalq teatrı aktyorlarının ifasında "Nəsimi" filmindən səhnələşdirilmiş parçalar nümayiş olunub. Xanəndələr Nəsiminin qəzəlləri üstündə muğamlar oxuyub, şairin qəzəlləri qiraət olunub. Ağdaş Regional Mədəniyyət İdarəsinin rəisi Ramiz Quliyev kompozisiyanın hazırlanmasında əməyi olan hər kəsə minnətdarlığını bildirib.

***

Ucar rayon Mədəniyyət Mərkəzində Nəsiminin yubileyinə həsr olunmuş yeniyetmələr arasında bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqə rayon Gənclər və İdman İdarəsi ilə birgə təşkil edilib. Mədəniyyət mərkəzinin direktoru Ruslan Rəsulov bildirib ki, layihədə Ucar rayon Mədəniyyət Mərkəzinin bədii qiraət dərnəyinin üzvləri ilə yanaşı, Boyat, Təzə Şilyan, Qulabənd kənd diyarşünaslıq, mədəniyyət evləri və digər klub müəssisələrinin bədii qiraət dərnəyinin üzvləri iştirak ediblər. Müsabiqədə fərqlənən qiraətçilərə regional idarənin diplom və hədiyyələri verilib.

***

Göyçay rayon Heydər Əliyev Mərkəzində keçirilən yubiley tədbirində direktor Zemfira Əliyeva, Göyçay şəhər 3 saylı tam orta məktəbin müəllimi Həqiqət Kərimova və digər çıxış edənlər Nəsimini Azərbaycan xalqının bəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından, görkəmli mütəfəkkirlərdən biri kimi səciyyələndiriblər.



Bildirilib ki, Nəsimi sarsılmaz iradəsi, möhkəm əqidəsi və böyük bədii istedadı ilə söz, fikir tariximizdə dərin iz qoyub. Sonra Nəsimi haqqında videoçarx nümayiş olunub, şəhər 3 saylı tam orta məktəbin şagirdləri şairin qəzəllərini söyləyiblər.

Əli Kərim adına Göyçay şəhər parkında "Nəsimi dünyası" adlı ədəbi-bədii gecə təşkil olunub. Rayon İcra Hakimiyyəti və Mədəniyyət mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə iştirakçılar əvvəlcə Rəsul Rzanın ev-muzeyini ziyarət ediblər.

"Əbədiyaşar ədiblər" abidə kompleksinin qarşısında davam edən mərasimdə İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə böyük şairin yaradıcılığının bənzərsizliyindən danışıb, 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunmasını yüksək qiymətləndirib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, professor Vüqar Əhməd, AYB-nin katibi Rəşad Məcid və başqaları çıxış ediblər. Çıxışlarda Nəsimi irsinin ədəbiyyat və mədəniyyətimizdə yerindən, ölkəmizdə şairin yaradıcılığına göstərilən diqqətdən söz açılıb. Tədbirin bədii hissəsində təqdim olunan "Nəsimi" filmindən səhnələşdirilmiş epizodlar, eləcə də səsləndirilən muğam və təsniflər alqışlarla qarşılanıb.




***

Zərdab rayon Heydər Əliyev Mərkəzində rayon MKS-nin 36 saylı kitabxana filialının birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbir iştirakçıları Nəsiminin 650 illiyi ilə bağlı hazırlalanan kitab sərgi ilə tanış olub, "Nəsimi" bədii filmindən fraqmentlərə baxıblar. Mərkəzin direktoru Könül Rəhimova böyük şairin Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən söz açıb. Kitabxananın müdiri İlhamə Qəribova "Haqq şairi İmadəddin Nəsimi" mövzusunda çıxış edib. Körpələr evi-uşaq bağçaları, məktəblər və mədəniyyət müəssisələrinin hazırladıqları kompozisiyalar nümayiş etdirilib.

***

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə reallaşan "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Ağdaşda keçirilən tədbiri də "Nəsimi ili"nin mədəni palitrasına daha bir töhfə olub. Nazirliyin 15 regional mədəniyyət idarəsini əhatə edən rayon və şəhərlərin nümayəndələrinin qatıldığı festival Ağdaş şəhərindəki Heydər Əliyev parkında təşkil olunub.

Regional idarələrin özfəaliyyət dərnəklərinin, mədəniyyət işçilərinin, musiqiçilərin ifasında vətənpərvərlik ruhunda, birliyə çağırış mesajı verən mahnılar, "Qarabağ şikəstəsi" səsləndirilib. Festivala rəng qatan anlardan biri Ağdaş Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Ağdaş Mədəniyyət Mərkəzinin Kəndirbazlar folklor kollektivinin rəhbəri Məhəmməd Paşayevin kəndir üzərində müxtəlif maraqlı hərəkətlər nümayiş etdirməsi olub.

Şəhər və rayonların sənətkarlarının, yaradıcı insanların əl işləri – dekorativ-tətbiqi sənət nümunələri, müxtəlif mövzularda çəkilmiş rəsmlər, bəzək əşyaları sərgilənib, dahi şairin 650 illiyinə həsr olunan guşə də maraqla qarşılanıb.



Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 20-21.